**VÜQAR MUXTAROV**

# HƏRBİ PSİXOLOGİYA

**Ali Hərbi Məktəblər üçün dərs vəsaiti**

Dərs vəsaiti Daxili İşlər Nazirliyi Daxili Qoşunların Ali Hərbi Məktəbinin Elmi Şurasının 18 oktyabr 2021-ci il tarixli (protokol № 7) iclasının qərarı ilə nəşrə tövsiyə olunmuşdur.

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**"Elm və təhsil"**
**BAKI – 2021**

Elmi redaktor:
**Elxan Bəylərov**
Azərbaycan Respublikası Təhsil İnstitutunun
"Psixologiya və xüsusi təhsil" şöbəsinin müdiri,
psixologiya elmləri doktoru

Məsləhətçi:
**Dilavər Ruhullayev**
istefada olan polkovnik

Rəyçilər:
**Ramiz Əliyev**
psixologiya elmləri doktoru,
professor

**Şəlalə Babayeva**
psixologiya üzrə fəlsəfə doktoru,
dosent

**Məhərrəm Əliyev**
psixologiya üzrə fəlsəfə doktoru,
dosent

**Aydın Şiriyev**
psixologiya üzrə fəlsəfə doktoru,
istefatda olan polkovnik-leytenant

**Muxtarov V.Ə. Hərbi psixologiya.**
**Bakı, "Elm və təhsil", 2021, 368 səh.**

Dərs vəsaitndə hərbi psixologiyanın obyekti, predmeti, vəzifələri və tədqiqat metodları, hərbi xidmət şəraitində psixi hadisələr, kollektiv və onun inkişaf mərhələləri, hərbi xidmət və idarəetmənin strukturu, hərbi fəaliyyətlərin psixoloji təminat elementləri, eləcə də dinc və müharibə dövrlərində psixoloji təminatın idarə olunması məsələləri şərh olunur.

Dərs vəsaiti ali hərbi məktəblərin kursantları üçün nəzərdə tutulsa da Silahlı Qüvvələrin Hərbi Akademiyasının dinləyiciləri, komandir və digər ixtisaslı hərbi qulluqçular, eləcə də hərbi psixologiya problemləri ilə maraqlanan geniş oxucu kütləsi üçün faydalı ola bilər.

4602000000
N-98-2021 qrifli nəşr

© Vüqar Muxtarov

# ÖN SÖZ

**Sizinlə döyüşənlərlə siz də Allah yolunda döyüşün və həddi aşmayın. Allah həddi aşanları sevmir.**

*Qurani-kərim, Bəqərə surəsi, 190-cı ayə*

Silahlı Qüvvələr mürəkkəb sosial varlıq olub, müasir cəmiyyətin ayrılmaz bir hissəsini təşkil edir. Onun vəziyyəti və inkişafı hər zaman cəmiyyətin inkişaf tendensiyaları ilə şərtlənir. Belə ki, elmi-texniki tərəqqi texnikanın inkişafına təsir göstərdiyindən silahlı mübarizənin vasitə və üsullarını dəyişir. Bütün bunlar müharibə və silahlı münaqişələrdə yeni taktika və strategiyaların meydana çıxmasına səbəb olur. Nəticədə döyüş fəaliyyətlərinin aparılma üsulları və qoşunların təşkilat strukturları dəyişir, yeni təlimat, dərslik, nizamnamə və s. vəsaitlər hazırlanır.

Yuxarıda qeyd olunanların müvəffəqiyyətli həlli üçün Silahlı Qüvvələrimizin zabitləri ixtisas və vəzifələrindən asılı olmayaraq müasir döyüşün taktikasını bilmək və hərbi texnikadan məharətlə istifadə etməklə yanaşı, müvafiq psixoloji biliklər məcmusuna da malik olmalı və bu bilikləri öz peşəkar fəaliyyətlərində tətbiq etməyi bacarmalıdırlar. Belə ki, zabitin fərdi-psixoloji hazırlığı yalnız tabeliyində olanları tanımaq, onlara təsir etmək və onların arasındakı münasibətləri tənzimləməklə bitmir. Bu bilik və bacarıqlar ona tabelikdə olanların potensial imkanlarından bütün şəraitlərdə düzgün istifadə etməyə, psixoloji vəziyyətlərini optimallaşdırmağa köməklik göstərir. Məhz bu bilik və bacarıqlara malik olan müxtəlif ixtisaslı zabit kadrlarının hazırlanması ali hərbi-təhsil müəssisələrimiz qarşısında duran əsas vəzifələrdən biridir.

Silahlı Qüvvələrimizdə zabit kadrlarının öz psixoloji biliklərini tətbiq etmə təcrübəsinə nəzər saldıqda görürük ki, bu növ fəaliyyət və tədbirlər Sovet Ordusu dövründə ya-

ranmış stereotiplərə əsasən, daha çox tərbiyə işi (şəxsi heyət) üzrə zabitlərin vəzifə borclarına aid edilir. Bu isə bölmə və hissələrdə *mənəvi-psixoloji təminatın* bəzi komandir və digər vəzifəli şəxslər tərəfindən lazım olan qaydada mənimsənilməsinin qarşısını alır. Nəticədə Silahlı Qüvvələrin *mənəvi-psixoloji təminat* potensialından tam istifadə etmək imkanı məhdudlaşır. Belə ki, bölmə və hissələrin *mənəvi-psixoloji təminatı* tərbiyə işi (şəxsi heyət) üzrə zabitlərin vəzifə borclarından qat-qat kənara çıxır. Bu baxımdan tərbiyə işi (şəxsi heyət) üzrə zabitlər *mənəvi-psixoloji təminat* tədbirlərini əsasən planlaşdırmalı və təşkil etməlidirlər. Bu zaman digər zabitlər vəzifə və ixtisasından asılı olaraq *mənəvi-psixoloji təminata* dair öz tapşırıqlarını yerinə yetirməli, bölmə və hərbi hissə komandirləri isə bu prosesi idarə etməlidirlər*.

Bu sahə üzrə diqqət yetirilməli digər mühüm məsələ ali hərbi təhsil müəssisələrimizdə *mənəvi-psixoloji təminat* üzrə metodologiya (metodlar, prinsiplər və s. göstəricilərin) və texnologiyaların (idarəetmə məsələlərinin) öyrənilməsi problemidir. Hərbi fəaliyyətlərin *mənəvi-psixoloji təminatının* metodologiya və texnologiyaları onun aşağıdakı *əsas sahələrini* əhatə etməlidir:

- *ictimai-siyasi (ideoloji) hazırlıq;*
- *psixoloji iş;*
- *hərbi-sosial iş;*
- *mədəni-maarif işi;*
- *informasiya-psixoloji mübarizə;*
- *texniki-təbliğat vasitələrinin təmin edilməsi.*

Hərbi elmi nəzəriyyədə mənəvi-psixoloji təminatın *psixoloji iş* və *informasiya-psixoloji mübarizə* üzrə sahələri *psixoloji təminat* adı altında tədqiq olunur. Respublikamızda *psixoloji təminat* məsələlərinin bakalavr pilləsində tədris

* *Hərbi idarəetmənin* ayrı-ayrı *funksiyaları* bu vəsaitin 8-ci fəslində açıqlanır. Bu nəzəriyyəyə əsasən *komandir*, əsasən, *liderlik* funksiyasını icra etməklə, *digər funksiyaların* da həyata keçirilməsinə cavabdehlik daşıyır.



olunması *"Hərbi psixologiya və pedaqogika"* fənni çərçivəsində həyata keçirilir. Mənəvi-psixoloji təminatın *ictimai-siyasi hazırlıq, hərbi-sosial iş, mədəni-maarif işi* və digər sahələri bakalavr mərhələsində *"Silahlı Qüvvələrdə tərbiyə işi"* və s. fənlər adı altında öyrənilir. Magistr pilləsində isə *mənəvi-psixoloji təminatın* bütün *sahələri "Hərbi idarəetmə psixologiyası"* fənni adı altında tədris olunur.

Silahlı Qüvvələrin inkişafının hər zaman cəmiyyətin inkişaf tendensiyaları ilə şərtlənməsi, dünyada (o cümlədən ölkəmizdə) müasir tipli müharibə və silahlı münaqişələrin baş verməsi və yuxarıda qeyd olunan digər məsələlər tərəfimizdən "Hərbi psixologiya" adlı yeni dərs vəsaitinin hazırlanmasına zəmin yaratmışdır. Bu dərs vəsaiti ali hərbi təhsilin bakalavr mərhələsi üçün nəzərdə tutulduğundan burada yalnız *psixoloji təminatın* əsas elementləri və onun idarə olunması məsələləri nəzərdən keçirilir. İki hissədən ibarət olan bu vəsait hərbi psixologiyanın nəzəri və tətbiqi əsaslarını açıqlayır. Burada psixologiya elminin məsələləri ilə yanaşı, hərb elminin nailiyyətləri istifadə edilməklə hərbi xidmətdə psixoloji biliklərin tətbiqi məsələləri də baxılır.

*I hissədə* insanın idrak proseslərinin hərbi xidmət şəraitində təzahüründən bəhs olunur, sadə və ali hissləri açıqlanır, iradi hərəkəti psixoloji cəhətdən təhlil edilir. Eyni zamanda burada insanın fərdi-psixi xassələri – şəxsiyyətin istiqaməti, temperamenti, xarakter və qabiliyyəti açıqlanır və hərbçi şəxsiyyətinin formalaşmasına təsir edən amillər öyrənilir. Burada hərbi kollektiv məfhumunun qısa şərhi verilir və onun inkişaf mərhələləri açıqlanır. Bununla yanaşı, hərbi kollektivlərdə cərəyan edən əsas sosial-psixoloji hadisələr – *qarşılıqlı münasibətlər, kollektiv əhval-ruhiyyə, ictimai rəy və hərbi ənənələr* nəzərdən keçirilir və onların formalaşdırılması yolları öyrənilir.

*II hissədə* ilk dəfə olaraq, hərbi psixologiyanın tədrisi təcrübəsində "hərbi xidmət" və "hərbi idarəetmə"nin hər birinin ayrı-ayrılıqda psixoloji strukturu verilməklə, *dinc* və

*müharibə* dövrlərində hərbi idarəetmənin psixoloji məsələləri açıqlanır. Burada dinc dövrdə idarə olunan sosial-psixoloji hadisələr *xidməti, məişət* və *ictimai* sahələr üzrə, psixoloji təminat tədbirləri isə döyüş hazırlığı prosesi və hərbi əməliyyatın hazırlanması üzrə nəzərdən keçirilir. Müharibə dövründə idarə olunan sosial-psixoloji hadisələr *döyüş fəaliyyətləri* və *cəbhə məişəti* kontekstində, *psixoloji təminatın* idarə olunması məsələləri isə hərbi əməliyyatın hazırlanması və həyata keçirilməsi zamanı, eləcə də hərbi əməliyyatdan sonrakı müvafiq tədbirlər şərçivəsində baxılır və öyrənilir.

XXI əsrin əvvəllərində hərbi psixologiya sahəsində çoxlu sayda müasir tipli – çağdaş dövrün tələblərindən irəli gələn məqalə, dərslik və monoqafiyalar nəşr olunmuşdur. Tədris informasiyasının müasirliyi və ətraflı olması üçün bu dərs vəsaitinin hazırlanmasında da Azərbaycan, rus, ingilis, Ukrayna və türk dillərində yazılmış məqalə, dərslik, monoqrafiya və digər materiallardan istifadə edilmişdir. Eyni zamanda tərəfimizdən *hərbi psixologiya və I Qarabağ müharibəsi* üzrə nəşr olunmuş biblioqrafiya, *II Qarabağ, Vətən müharibəsi* üzrə isə video görüntülü müsahibələr toplusu formalşdırılmışdır.

Vəsaitdə 1950-2020-ci illər ərzində baş vermiş lokal (regional) müharibə və silahlı münaqişələrin müvafiq təhlil və nümunələri verilir. Bununla yanaşı, burada *I Qarabağ müharibəsi, 2016-cı ilin Aprel əməliyyatları* və *2020-ci ilin İyul hadisələri,* eləcə də *II Qarabağ, Vətən müharibəsinin psixoloji təminat* təcrübəsi də öz əksini tapır.

Tədris vəsaitində istifadə olunan lokal müharibə və silahlı münaqişələr təcrübəsinin bir çox nümunəsi Müdafiə Nazirliyinin Hərbi-Elmi Mərkəzində yazılmış "*Qoşunların döyüş fəaliyyətinin psixoloji təminatı*" (2009), eləcə də Hərbi Təhsil, Tədris və Elmi Tədqiqatlar idarəsində hazırlanmış "*Lokal müharibə və hərbi münaqişələrdə döyüş fəaliyyətinin psixoloji təminatı*" (2011) tədqiqat işlərindən götürülmüşdür. Bu vəsaitdə (11-12-ci fəsillərdə) müharibə və silahlı münaqişələrin şərhi *strateji, əməliyyat* və *taktiki* səviyyələrdə verilmiş, lakin vəzifəli şəxslərin tapşırıqları *taktiki* səviyyə üzrə (birləşmə komandirinədək) müəyyən edilmişdir.

Bu dərs vəsaitinin, əsasən, müasir orduların (o cümlədən Azərbaycan Ordusunun) təcrübəsini əks etdirməsinə baxmayaraq, tədris prosesində ondan istifadə olunması Daxili Qoşunlar, Dövlət Sərhəd Xidməti və ölkə qanunvericiliyi əsasında fəaliyyət göstərən digər silahlı birləşmələr üçün də aktualdır. Bu vəsait bütün hərbi ixtisaslar, xüsusən komandir ixtisası üzrə hazırlanan kursantlar üçün nəzərdə tutulmuşdur. Ondan Silahlı Qüvvələrin Hərbi Akademiyasının dinləyiciləri, eləcə də hazırda komandir və digər ixtisas üzrə xidmət edən hərbi qulluqçular da faydalana bilər.

Vəsaitin işıq üzü görməsində əməyi olmuş şəxslərə, xüsusən onun elmi redaktoru psixologiya elmləri doktoru E.B.Bəylərova, hərbi məsələlər üzrə məsləhətçi istefada olan polkovnik D.M.Ruhullayevə, rəy və tövsiyələr vermiş psixologiya üzrə fəlsəfə doktoru, dosent M.S.Əliyevə öz dərin minnətdarlığımızı bildiririk.

Kitab haqqında tənqidi fikir bildirən və faydalı məsləhətlərini əsirgəməyən oxuculara öncədən təşəkkür edirik.

***Vüqar Muxtarov***
ehtiyatda olan polkovnik-leytenant
**Bakı şəhəri, 12.02.2021**

# BİRİNCİ HİSSƏ
# HƏRBİ PSİXOLOGİYANIN NƏZƏRİ ƏSASLARI

**Həmişə öyrən və öyrənməklə məşğul ol.**
**Əvvəl məqsədi müəyyənləşdir,**
**sonra elmi seç.**
Platon (Əflatun)

## I FƏSİL
## HƏRBİ PSİXOLOGİYA – PSİXOLOGİYA ELMİNİN BİR SAHƏSİ KİMİ

### 1.1. Psixologiya bir elm kimi.

Elmlər içərisində psixologiyanın xüsusi yeri vardır. *Psixologiya* termini iki yunan sözündən – **"psyuxe"** – ***ruh, ruhi aləm,*** **"loqos"** – ***elm, bilik*** sözlərindən əmələ gəlmişdir, ***"psixika haqqında elm"*** deməkdir. Bu elm sahəsi müvafiq dövrləri əhatə etməklə *mərhələlərlə* inkişaf etmişdir[1]. Burada *ilkin* ***mərhələ*** eramızdan əvvəl VII-VI əsrlərə qədərki dövrü əhatə edir. Bu dövrdə ruh haqqında düşüncələr çoxsaylı mif və əfsanələr, eləcə də dini inanclarda öz əksini tapmışdır. *Növbəti* ***mərhələ*** eramızdan əvvəl VII-VI əsrlərdən başlayaraq XIX əsrin sonlarına qədər, fəlsəfə elmi çərçivəsində davam etmişdir. Miladdan öncə görkəmli filosoflar – *Sokrat, Platon, Aristotel* və başqaları ***ruh***, onun yaranması və mahiyyəti ilə bağlı müxtəlif fikirlər irəli sürmüşlər.

Psixologiyanın müstəqil elm sahəsi kimi meydana çıxması isə XIX əsrin ikinci yarısından başlamışdır. *Bu* ***mərhələ*** Alman alimi V.Vundtun ilk eksperimental psixologiya laboratoriyası yaratması ilə əlaqədardır. V.Vundt

[1] Seyidov S.İ., Həmzəyev M.Ə. Ümumi psixologiya. Psixologiya. Bakı: 2014. https://belc.az/uploads/library/8f3d5-umumi-psixologiya.pdf - s. 21.



(1832-1920) dünya tarixində ilk dəfə olaraq elmi psixologiyadan mühazirələr oxumuşdur.

XX əsrin əvvələrində psixologiyanın ***psixoanaliz, biheviorizm, qeştalt*** və ***marksist*** məktəbləri yaranmışdır. XX əsrin ikinci yarısında ***humanist, genetik*** və ***koqnitiv*** psixologiya məktəblərinin meydana çıxması ilə psixologiya elmi özünün *yeni inkişaf* ***mərhələsinə*** daxil olmuşdur. *Bu mərhələdə* ayrılma və parçalanma deyil, əksinə ayrı-ayrı məktəblərin, tədqiqat istiqamətlərinin birləşmə prosesi baş vermişdir.

Azərbaycanın görkəmli psixoloqları Ə.Əlizadə və Ə.Bayramov psixologiyanın çoxsaylı sahələrini aşağıdakı istiqamətlər üzrə ayırd etmişlər[1]:

1. Konkret fəaliyyət sahələri üzrə.
2. İnkişafın psixoloji aspektləri üzrə.
3. İnsanın cəmiyyətə münasibətinə görə (Sxem 1).

Qeyd olunan istiqamətlərdən məlum olur ki, psixoloji fənlərin böyük əksəriyyəti konkret fəaliyyət sahələrini tədqiq edir. Müxtəlif fəaliyyət sahələrinin təkmilləşdirilməsi baxımdan bu istiqamətlərin mühüm əhəmiyyəti vardır.

Müasir psixologiyanın predmeti **psixika** və **psixi hadisələrdir.** Psixologiyada *psixika və psixi hadisələr* haqqında mövcud təsəvvürləri nəzərdən keçirək.

**Psixika** beynin xassəsi hesab edilir və bütün canlılara məxsusdur. *Psixika* sinir sisteminin funksiyasının məhsulu olub, obyektiv və subyektiv reallığın *beyində* dinamik inikasıdır (əks etdirilməsidir). Psixikanın ən yüksək səviyyəsini *şüur* təşkil edir. ***Şüur*** psixikanın ən yüksək səviyyəsi olub, obyektiv aləmin insan beynində inikasıdır.

[1] Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: 2002. – s.74.




Sxem 1. Psixoloji fənlərin təsnifatı (Ə.Əlizadə və Ə.Bayramova görə)



İnsan psixikası ictimai mühitin və sosial-iqtisadi şəraitin inkişafı nəticəsində dəyişərək, müvafiq tarixi şəraitlərə əsasən inkişaf və ya tənəzzül edir. Heyvanlarda isə psixi təzahür onların ətraf mühitə uyğunlaşmaları ilə müəyyən olur. Bu baxımdan onların davranışı ***instinktiv*** davranış, yəni *ətraf mühitin müəyyən şərait və təsirindən yaranan mürəkkəb, anadangəlmə reaksiya* kimi qəbul edilir.

Qeyd olunduğu kimi psixologiyanın predmeti **psixi hadisələrin** də tədqiq olunmasını nəzərdə tutur. Psixi hadisələrin strukturu müxtəlif cür təsnif olunmuşdur. Adətən onlara *psixi proseslər, psixi hallar* və *psixi xassələr* aid edilir. Bu zaman onlar aşağıdakı tərkibə malik olur:

***Psixi proseslər*** – *idrak prosesləri, hisslər* və *iradə.*

***Psixi hallar*** – *əhval, affekt, frustrasiya və s.*

***Psixi xassələr*** – *istiqamət, temperament, xarakter və qabiliyyətlər.*

*Psixi hadisələr* hər bir *fərddə* olduğu kimi bütün *qruplarda* da mövcuddur (Sxem 2). Bu zaman *qrupdakı* psixi hadisələr aşağıdakı qaydada təsnf olunur:[1]

***Qrupdakı psixi (sosial-psixoloji) proseslər*** – *sosial qavrayış, fərdi və qruplararası münasibətlər və s.*

***Qrupdakı psixi (sosial-psixoloji) hallar*** – *münaqişə, çaxnaşma və s.*

***Qrupun psixi (sosial-psixoloji) xassələri*** – *fəaliyyətin effektivliyi, mütəşəkkillik, sosial-psixoloji uyğunluq və s.*

**Dərs vəsaitinin *birinci hissəsində* psixi hadisələrin hərbi xidmət şəraitində təzahürü və xüsusiyyətləri, *ikinci hissəsində* isə onların idarə olunması məsələləri baxılır.**

---

[1] Маклаков А.Г. Психология и педагогика. Военная психология. СПб., 2007. - с.68.

Hörmətli oxucu,

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.

